# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)

## Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında

**Naxçıvan Muxtar Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**

## 2023-cü il üzrə məruzəsi

**Naxçıvan – 2024**

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsi “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Qanunun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) cari il bitdikdən sonra bir aydan gec olmayaraq illik məruzəni Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə təqdim edir və həmin məruzə ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qarşısında çıxış edir.

İllik məruzə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Prokuroruna göndərilir.

Məruzə «Şərq qapısı» qəzetində dərc olunur.

## Giriş sözü

Müasir şəraitdə hər bir dövlətin demokratik xarakteri onun insan hüquqlarına münasibəti, həmin dövlətdə insan hüquqlarının vəziyyəti ilə müəyyən edilir.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi istiqamətində həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş müasir hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

2023-cü il xalqımız və dövlətimiz üçün bir çox əlamətdar hadisələrlə yadda qalmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilərək əbədiləşdirilməsi, respublikamızda müstəqil dövlətçilik düşüncəsinin, azərbaycançılıq ideallarının, vətənpərvərlik tərbiyəsinin daha da möhkəmləndirilməsinə öz müsbət töhfəsini vermişdir.

Azərbaycanın bugünkü uğurları bir daha onu təsdiqləyir ki, 2023-cü ildə hakimiyyətə gəlişinin 20 ilini böyük uğurla başa vuran ölkə başçısı cənab İlham Əliyev ölkəmizi mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevirmişdir.

Möhtərəm Prezident cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə əldə edilmiş siyasi, iqtisadi və diplomatik nailiyyətlər, ölkənin müdafiə qüdrətinin artırılması istiqamətində ardıcıl həyata keçirilən məqsədyönlü siyasət nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən bütün ərazilərimizdə suverenliyimiz bərpa edilmiş, bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasına nail olunmuşdur.

Qeyd etmək lazımdır ki, sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə sadiq olan Azərbaycan beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə uyğun olaraq hər hansı ayrı-seçkiliyə yol vermədən Qarabağ bölgəsində yaşayan etnik erməni sakinlərinin də bərabər hüquqlarını multikultural dövlət siyasətinə uyğun olaraq qoruyur.

Bütün bunlara baxmayaraq üçtərəfli bəyanatın 9-cu bəndində vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə dəhlizin yaradılması nəzərdə tutulsa da, Ermənistanın bu müddəaya hələ də əməl etməməsi Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa olunmamasına, nəticə etibarilə Naxçıvan əhalisinin öz ölkəsi daxilində maneəsiz hərəkət etmək hüququnun məhdudlaşdırılmasına səbəb olur.

Eyni zamanda indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi çoxsaylı fundamental insan hüquqları prinsiplərinin, beynəlxalq hüquq normalarının, beynəlxalq konvensiyaların ciddi və sistematik pozulmasıdır və bu, davamlı sülhün bərqərar olunmasına ciddi təhdid törədir. Şübhəsiz ki, qərbi azərbaycanlıların öz doğma tarixi-etnik torpaqlarına geri qayıtmaq və təhlükəsiz şəraitdə yaşamaq hüququnun təmin edilməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yeni idarəçilik institutunun yaradılması effektiv idarəçiliyin təmin edilməsinə, idarəetmənin təkmilləşdirilməsinə, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına xidmət etmiş, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilməsi hüquq institutlarına, o cümlədən Ombudsman təsisatına inamı artırmışdır. Belə ki, 2023-cü ildə Müvəkkilin icraatına daxil olan müraciətlərin sayı ötən illə müqayisədə 2.8 dəfə artmışdır.

Dövlət idarəçiliyində yeni düşüncə tərzinin formalaşdırılması məqsədilə ötən il muxtar respublikada ASAN xidmət mərkəzinin istifadəyə verilməsi vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə, şəffaflığın artırılmasına, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə müsbət təsir göstərmiş, vətəndaş məmnunluğu təmin edilmişdir.

Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində həyata keçirilən uğurlu iqtisadi və sosial islahatlar regionun iqtisadiyyatının inkişafının davamlılığının təmin edilməsinə, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasına, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsinə xidmət edir.

Ölkəmizdə insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi, vətəndaşların hüquq institutlarına inamının artırılması, onların müraciət etmək imkanlarının asanlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında ardıcıl şəkildə davam etdirilir, əhalinin müxtəlif sosial qruplarının hüquq bərabərliyinin davamlı təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman institutunun yaradılması və fəaliyyətinin təmin edilməsi dövlət və vətəndaş münasibətlərində yeni bir başlanğıcın əsasını qoymuşdur.

Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqətdə saxlanılmış, Qanuna edilmiş bir sıra dəyişikliklər insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin etmişdir. Bu tədbirlərin davamı kimi 5 oktyabr 2023-cü il tarixdə mövcud Qanuna edilmiş müvafiq dəyişikliklərə əsasən Ombudsmana “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanın və “Uşaq hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyətləri, o cümlədən şikayət üzrə yerində araşdırma aparmaq və nəticələrini sənədləşdirmək, preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək, habelə Preventiv

qrupun üzvlərinə texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyat aparmaq hüququ verilmişdir.

Ombudsmanın fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qanuna edilmiş dəyişikliklər və əlavələr müstəqil monitorinq mexanizmi vasitəsilə insan hüquqlarının və azadlıqlarının təmini vəziyyətinin öyrənilməsi və təhlilinə, hüquqların təmini vəziyyətinə nəzarətin genişləndirilməsinə, insan hüquqlarına və qanunların aliliyinə hörmətin artırılmasına, hüquq bərabərliyinin təmin edilməsinə, bir sözlə insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə xidmət edir.

Muxtar respublikada səmərəli hüquq müdafiə mexanizmi kimi formalaşan Ombudsman təsisatı fəaliyyətini insan hüquqlarının daha etibarlı müdafiəsi, pozulmuş hüquqların bərpası və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması, preventiv və müstəqil monitorinq mexanizm funksiyalarının icrası, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin informasiya sahibləri tərəfindən yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi, beynəlxalq təcrübə mübadiləsi, hüquqi maarifləndirmə, bu sahədə dövlət orqanları və bələdiyyələr, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində quraraq uğurla davam etdirmişdir.

Öz fəaliyyətini müstəqillik, aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət və qərəzsizlik prinsipləri əsasında quran Ombudsmanın ünvanına 2023-cü il ərzində **274 müraciət daxil olmuşdur**. Bu müraciətlər Ombudsmana yazılı (o cümlədən elektron) qaydada göndərilmiş, həmçinin Aparatda vətəndaş qəbulu, Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, cəzaçəkmə müəssisəsinə, istintaq təcridxanasına, müvəqqəti saxlama yerinə, hərbi hissələrə, sosial xidmət mərkəzlərinə, internat məktəbinə, səhiyyə, təhsil və əhalinin sosial müdafiəsi müəssisələrinə həyata keçirilmiş başçəkmələr zamanı təqdim edilmişdir.

Hesabat dövründə Ombudsmanın muxtar respublikanın şəhər və rayonlarında sakinlərlə görüşü keçirilmiş, görüş zamanı müraciət edənlərə hüquqları izah olunmuş, icraata qəbul olunmuş 53 müraciət qanunvericiliyin tələbləri çərçivəsində araşdırılmışdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə insan hüquq və azadlıqları sahəsində həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə bu sahədə qanunvericilik və institusional islahatlara təkan vermişdir. Həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən 18 iyun ölkəmizdə hər il İnsan Hüquqları Günü kimi qeyd olunur. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “18 iyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günü” münasibətilə Ombudsmanın təşkilatçılığı ilə 18 dövlət orqanının nümayəndəsinin cəlb edildiyi aksiya zamanı muxtar respublikanın şəhər və rayonlarında vətəndaş qəbulu həyata keçirilmiş, qəbul zamanı 141 sakinə müvafiq hüquqi yardım göstərilmiş, müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər

baxılmaq üçün icraata qəbul olunmuş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmış və nəticələri barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir.

Daxil olmuş müraciətlərin hüquqi kateqoriyasına görə ən çoxunu, yəni ***24 faizini sosial təminat, 19 faizini əmək, 14 faizini hüquq və azadlıqların məhkəmə təminatı, 12 faizini isə mülkiyyət hüququ*** ilə bağlı müraciətlər təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətin Ombudsmanın səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi, şikayətin anonim olması, şikayətdə üçüncü şəxs qismində müraciət edənin etibarnaməsinin olmaması, ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən 1 il müddətinə verilməməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən **43 müraciətə baxılmasından imtina** edilmişdir. **231 müraciət baxılmaq üçün icraata** qəbul edilmiş, onlardan **59-u tam, 16-sı qismən** təmin edilmişdir ki, bu da Ombudsmanın fəaliyyəti dövründə ötən illər üzrə ən yüksək göstəricidir. 14 müraciət nəzarətdə saxlanılmış, 109 müraciətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmiş, 22 müraciət üzrə hüquqi məsləhət verilmiş, 1 müraciət aidiyyəti üzrə göndərilmiş, 10 müraciət üzrə isə icraat davam etmişdir.

2023-cü il ərzində Ombudsman tərəfindən ***baxılmış müraciətlərin 28.6 faizi tam, 7.8 faizi isə qismən təmin edilmiş, 2023-cü il ərzində baxılan müraciətlərin təmin edilmə vəziyyəti 2022-ci illə müqayisədə 19.6 faiz artmışdır.***

Muxtar respublikanın aidiyyəti dövlət orqanlarına vətəndaşların etdiyi müraciətlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və vaxtında baxılmaması və yazılı cavab verilməməsi barədə şikayətçilər tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər qanunamüvafiq araşdırılmış, vətəndaşların hüquqlarını pozan dövlət orqanlarına müvafiq tədbirlərin görülməsi ilə bağlı müvafiq sorğular ünvanlanmış, hüquq pozuntuları aradan qaldırılaraq vətəndaşların hüquqları təmin edilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən müraciətlərin təmin olunması səviyyəsinə nəzər yetirdikdə, şikayətlər üzrə ən çox müraciətləri Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi (13 %), Daxili İşlər Nazirliyi (8.7 %), yerli icra hakimiyyəti orqanları tərəfindən isə Naxçıvan Şəhər İcra Hakimiyyəti (9 %) təmin etmişdir.

Uşaq hüquqlarının səmərəli müdafiəsi və təşviqinə nail olmaq məqsədilə hər il olduğu kimi, ölkəmizdə 20 oktyabr - 20 noyabr tarixləri "Uşaq Hüquqları Aylığı" elan edilmiş, Ombudsman muxtar respublikada bütün aidiyyəti qurumları "Uşaq Hüquqları Aylığı"na qoşulmağa dəvət edərək uşaq hüquqlarının müxtəlif aspektləri üzrə araşdırmaların aparılmasına, maarifləndirmə, təşviqat və digər tədbirlərin keçirilməsinə çağırmışdır. Muxtar respublikanın daxili işlər, ədliyyə, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, əmək və əhalinin sosial müdafiəsi nazirlikləri, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti dövlət qurumları "Uşaq Hüquqları Aylığı"na qoşularaq 93 tədbir həyata keçirmişdir. Ombudsman tərəfindən uşaq hüquqları ilə bağlı keçirilmiş tədbirlərdə 2739 nəfər iştirak etmişdir.

İnsan hüquq və azadlıqlarının təmini vəziyyətini daim diqqətdə saxlayaraq monitorinqini aparan Ombudsman ötən il ərzində səlahiyyətli dövlət orqanlarına insan hüquqlarının daha səmərəli təmin olunması və müdafiəsi, o cümlədən əhalinin

həssas qruplarının problemlərinin operativ şəkildə həll olunması məqsədilə təklif və tövsiyələrlə müraciət etmişdir.

Ombudsmana etimad göstərərək müraciət edən şəxslərə, həmçinin insan hüquq və azadlıqlarının təmin və müdafiəsi istiqamətində əməkdaşlıq edən dövlət orqanlarına və vətəndaş cəmiyyəti institutlarına təşəkkürümü bildirirəm.

**Günay Rzayeva**

Naxçıvan Muxtar Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# I FƏSİL

# İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

## 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edildiyi kimi, hər kəsin azadlıq hüququ vətəndaşlığından asılı olmayaraq hər bir şəxsə məxsusdur və ayrılmazdır.

Azadlıq hüququ cəmiyyətin sosial-iqtisadi əsasları ilə müəyyən edilən, başqalarının və cəmiyyətin azadlığını pozmamaq şərti ilə vətəndaşların öz arzularına və iradəsinə uyğun və hər hansı məhdudiyyət olmadan davranmaq, bu və ya digər hərəkəti etmək imkanını ifadə edir və bu hüququn səmərəli təmin edilməsi digər hüquqların da qanuni surətdə həyata keçirilməsinə şərait yaradır.

Bu sahədə Ombudsmanın ünvanına daxil olan müraciətlərdə əsasən yaşayış yeri üzrə qeydiyyata alınma, ölkədən çıxışa qoyulmuş məhdudiyyətin götürülməsi və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Müəyyən səbəblərdən daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxarılan və yaşayış yeri olmayan vətəndaşların müraciətlərinə diqqətlə yanaşılmış, Ombudsman tərəfindən belə şəxslərin hüquqlarının təmin edilməsi üzrə zəruri tədbirlər görülmüş və aidiyyəti dövlət qurumlarına təklif və tövsiyələr verilmişdir.

Azərbayacan Respublikası Konstitusiyasına və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə əsasən azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Ombudsman və onun tapşırığına əsasən Preventiv qrupun üzvləri tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən İstintaq Təcridxanasına, Müvəqqəti Saxlama Yerinə, Qanunsuz Miqrantların Saxlanma Mərkəzinə, şəhər və rayon polis idarə, şöbə və bölmələrinin saxlama yerinə müntəzəm keçirilmiş başçəkmələr zamanı azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı məsələlər araşdırılmış, saxlamanın əsasları, qanuniliyi, müddət və şərtləri, saxlanılan şəxslərin hüquqlarının təmini ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunub-olunmaması məsələləri aydınlaşdırılmışdır.

Cinayət-prosessual qanunvericiliyə əsasən hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə alınmanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları ona aydın olan dildə bildirilməlidir.

Başçəkmələr zamanı qəbul edilmiş şəxslərdən hüquq və vəzifələri, daxili intizam qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası barədə məlumatlandırılması ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilib-edilməməsi araşdırılmış, Ombudsmana müraciət etmə qaydaları barədə məlumat lövhəsinin mövcudluğu yoxlanılmış, bununla bağlı çatışmazlıqlar yerində aradan qaldırılmışdır.

Tutulmuş şəxsin hüquqlarının təmin olunması üçün cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerinin əməkdaşları şəxsə tutulduğu andan

öz vəkili və qanuni nümayəndəsi ilə ləyaqətli şəraitdə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq imkanı yaratmalıdır.

**Ərizəçi A.** Ombudsmana müraciət edərək oğlunun tutulduğunu, harada saxlanıldığı barədə məlumatının olmadığını bildirmiş, oğlu ilə görüş və telefon əlaqəsinin saxlanılmasına köməklik göstərilməsini xahiş etmişdir. Müraciət dərhal araşdırılmış, qanunvericiliyin tələblərinə uyğun olaraq ərizəçinin İstintaq Təcridxanasında saxlanılan oğlu ilə görüş və ünsiyyət hüququ təmin olunmuşdur.

**Ərizəçi B.** Ombudsmana müraciət edərək İstintaq Təcridxanasında saxlanılan oğlu ilə görüş hüququnun təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir. Ərizəçinin müraciəti ilə bağlı aidiyyəti quruma müvafiq təklif və tövsiyələr verilmişdir.

Başçəkmələr zamanı şəxslərin saxlanılması ilə bağlı qanunvericlikdə nəzərdə tutulmuş prosessual normalara əməl edilib-edilməməsinin də monitorinqi aparılmışdır.

Bəzi hallarda polis orqanlarındakı (*Naxçıvan Şəhər Polis İdarəsi, 1-ci Polis Bölməsi, Babək Rayon Polis İdarəsi, Şahbuz Rayon Polis Şöbəsi*) müvafiq qeydiyyat kitablarında qeydlərin aparılması zamanı natamam qeydə alınma hallarına rast gəlinmişdir.

***“İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə” Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi.***

Ombudsman və onun Preventiv qrupu (PQ) tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə saxlanma şəraitinin, rəftar məsələlərinin, sənədləşdirmənin, habelə daxil olmuş müraciətlərin araşdırılması məqsədilə il ərzində 76 başçəkmə həyata keçirilmişdir.

Daxili İşlər Nazirliyinin tabeliyində olan müəssisələrə 33, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 19, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının tabeliyində olan sərhəd zastavalarına 8, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə 3, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının Xüsusi Təyinatlı Dəstə hərbi hissəsinə 1, Təhsil Nazirliyinin müəssisələrinə 4, Səhiyyə Nazirliyinin müəssisələrinə 4, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 2 və Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin müəssisəsinə 2 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr zamanı **768** şəxslə ümumi və **152** şəxslə konfidensial görüş keçirilmişdir. Görüşlər zamanı həmin şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müraciətləri dinlənilmiş, bir çox məsələlər yerində həll edilmiş, digər hallarla bağlı aidiyyəti dövlət qurumlarına müraciətlər edilmişdir.

Başçəkmələr zamanı Ombudsmanın icraatına yazılı və şifahi formada **23 müraciət daxil olmuş,** müraciət edənlərə operativ şəkildə hüquqları izah olunmuş, araşdırma tələb edən müraciətlər baxılmaq üçün icraata qəbul olunmuş, qanunvericiliyin tələbləri çərçivəsində araşdırmalar aparılmış və nəticəsi barədə müraciət edənlərə yazılı məlumatlar verilmişdir. Başçəkmələrdə müraciət edənlərin **43.5 faizinin pozulmuş hüquqları bərpa edilmiş,** qalanlarında hüquq pozuntusu aşkar edilməmişdir.

Yaşayış sahəsi, qida, gigiyena saxlanılan şəxslərin ləyaqət hissinə və rifah halına təsir edən amillərdəndir. Buna görə də başçəkmələr zamanı məhkumların ləyaqətlərinin qorunması, işçi heyətin onlarla humanist və müsbət rəftar etmə öhdəliyinə əməl etmə məsələlərinə xüsusi diqqət yetirilmiş, məhkumların saxlanılması üçün bütün mümkün sahələrdən istifadə, gigiyena və sanitariya qurğuları, məhkumların sağlamlığının qorunması və açıq havada olmaq imkanı monitorinq olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətin müəssisələrində sıxlıq probleminə əsas etibarilə İstintaq Təcridxanasında rast gəlinir. Belə ki, 34 şəxs üçün nəzərdə tutulmuş Penitensiar Xidmətin İstintaq Təcridxanasında müəyyən olunmuş həddən artıq sayda 64 şəxs saxlanıldığı müşahidə edilmişdir.

Qeyd olunanlar nəzərə alınaraq, penitensiar müəssisələrdə şəxslərin yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə və beynəlxalq standartlara riayət edilməlidir.

Monitorinqlər zamanı penitensiar xidmətin tabeliyindəki bir sıra müəssisələrin təmirə ehtiyacının olduğu müşahidə edilmişdir.

Başçəkmələr zamanı saxlama şəraitinin digər aspektləri-işıqlandırma, havalandırma, sanitariya şəraiti, masa və oturacaqlar, habelə fərdi çarpayı və yataq ləvazimatları ilə təchizat məsələləri, o cümlədən əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsanların aradan qaldırılması istiqamətində verilmiş təklif və tövsiyələrin icrası vəziyyəti araşdırılmış, müsbət dəyişikliklərin olduğu müşahidə edilmişdir.

Belə ki, əvvəlki başçəkmələrdə verilmiş təklif və tövsiyələrə uyğun olaraq penitensiar müəssisədə əsaslı təmir işləri nəticəsində istilik sistemi bərpa olunmuş, yumşaq inventarlar yenilənmiş, işıqlandırma şəraiti yaxşılaşdırılmış, məhkumların keyfiyyətli ərzaq malları əldə edə bilməsi üçün cəzaçəkmə müəssisəsində mərkəzləşdirilmiş ticarət köşkü fəaliyyətə başlamış, o cümlədən məhkumların poçt vasitəsi ilə məktub göndərmələri üçün zəruri şərait yaradılmışdır.

Həmçinin cəzaçəkmə müəssisələrində saxlanılan şəxslər üçün yer məhdudiyyəti ilə əlaqədar yeni korpuslara ehtiyac olduğu barədə aidiyyəti orqanlara müraciət olunmuşdur.

Başçəkmələrin təhlili penitensiar müəssisədə psixoloji yardımla bağlı çatışmazlıqların olması qənaətinə gəlməyə əsas verir. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə dövlət hesabına psoxoloji xidmətin göstərilməsi üçün hüquqi bazanın formalaşmasına baxmayaraq, qapalı müəssisələrdə saxlanılan və psixi sağlamlığına potensial təhlükə yarana biləcək şəxslərə keyfiyyətli və adekvat yardımın göstərilməsinə ciddi ehtiyac vardır.

Polis orqanlarının müvəqqəti saxlama yerlərinə keçirilən başçəkmələr zamanı rəftar məsələləri ilə bağlı bəzi nöqsanlar aşkar edilmişdir. Həmin şikayətlər üzrə dərhal müvafiq qurumlara müraciətlər edilmiş, zəruri araşdırmalar aparılmış, qanunamüvafiq tədbirlər görülmüşdür.

**Ərizəçi C.** Ombudsmana müraciət edərək polis məntəqəsində saxlanılan qardaşının döyülərək pis rəftara məruz qaldığını və təhqir olunduğunu bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Naxçıvan

Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə sorğu verilmiş və məsələ ilə bağlı araşdırma aparılmışdır.

Həyata keçirilmiş başçəkmələr zamanı bəzi müəssisələrdə saxlanma şəraitinin beynəlxalq və milli qanunvericiliyin tələblərinə uyğun olmadığı, bu sahədə bir sıra nöqsan və çatışmazlıqların olduğu müəyyən edilmiş, qanunvericiliyin tələblərinə əməl olunmaqla bu nöqsanların aradan qaldırılması üçün aidiyyəti dövlət orqanlarına təklif və tövsiyələr verilmişdir.

2023-cü il ərzində Ombudsmanın Preventiv qrupu tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan Müvəqqəti Saxlama Yerinə, polis idarə, şöbə və bölmələrinə həyata keçirilmiş başçəkmələr zamanı MSY-nin kameralarında sanitariya-gigiyena qaydalarına əməl olunmamasının cəzanın ləyaqətli şəkildə çəkilməsinə maneə olduğu, istifadəyə yararsız dərman preparatlarının mövcudluğu, yumşaq inventarların istifadəyə yararsız və natəmiz olduğu, bəzi müəssisələrin müvəqqəti saxlama yerlərində şəraitin uzunmüddətli saxlanılma (24 saatdan artıq) üçün əlverişli olmadığı, həmçinin bəzi polis şöbələrində “Görüş otağı”nın olmadığı müşahidə edilmiş və qeyd olunan halların aradan qaldırılması müəssisə rəhbərliyinə tövsiyə olunmuşdur.

Verilmiş tövsiyələrdən sonra Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Müvəqqəti Saxlama Yerində aşkar olunmuş nöqsanların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görüldüyü, Şərur, Ordubad rayon polis idarə və şöbələrinin müvəqqəti saxlama yerlərində təmir və yenidənqurma işlərinin davam etdirildiyi, Kəngərli və Sədərək rayon polis şöbələrində “Görüş otağı”nın yaradıldığı, Naxçıvan Hava Nəqliyyatında Polis Şöbəsində müvəqqəti saxlama kamerasında olan dəmir seyf qapı həm kameranın içərisini müşahidə etmək, həm də havalandırmaq üçün kəsilərək dəmir barmaqlıqları olan dördbucaq şəkilli gözlüklə təchiz olunduğu müəyyən olunmuşdur.

Hesabat dövründə uşaqların öz iradəsi ilə tərk edə bilmədiyi 2 müəssisə üzrə planlı və plandankənar 5 başçəkmə həyata keçirilmiş, 54 uşaqla ümumi, 27 uşaqla isə fərdi şəkildə görüş keçirilmişdir.

Başçəkmələr zamanı həmin müəssisələrdə bir sıra çatışmazlıqların olduğu müəyyən edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Ordubad şəhər tam orta internat məktəbində tərbiyə olunan hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş şagirdlər istisna olmaqla, müəssisədə gecələyən digər uşaqlara geyim, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventarın verilmədiyi, uşaqlarla aparılmış söhbətlər zamanı onların məktəbin gecə dayəsinin pis rəftar halından narazı olduğu, həmçinin məktəbin istilik sistemində nasazlıqların olduğu müəyyən edilmişdir.

Ombudsman tərəfindən aidiyyəti dövlət orqanına qeyd olunan halın aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi tövsiyə olunmuşdur.Verilmiş təklif və tövsiyələrə uyğun olaraq yumşaq inventarların alınması üçün razılıq alındığı, məktəbdə tərbiyə olunan uşaq və yeniyetmələrin geyim, ayaqqabı və şəxsi gigiyena əşyaları ilə təmin edilməsi məqsədilə aidiyyəti orqanlara müraciət olunduğu bildirilmiş, məktəbin gecə dayəsi barəsində müvafiq intizam tənbehi tətbiq edilmiş, məktəbin istilik sistemindəki nasazlıq aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Xəstəliklər Dispanserinə başçəkmələr zamanı Dispanserin inzibati binasında

havalandırmanın bəzi otaqlarda normal olmadığı, ventilyasiyanın, o cümlədən sanitar qovşaqlardan birinin işləmədiyi, pasiyentlərin qida təmini məsələlərində çatışmazlıqların olduğu, onların yumşaq inventarlarla təmin edilmədiyi müşahidə olunmuşdur.

Saxlanma şəraitinin yaxşılaşdırılması, sanitariya-gigiyena şəraitinin qanunvericiliyin tələblərinə uyğunlaşdırılması, psixiatriya müəssisələrində hospitallaşdırılmış pasiyentlərin sosial müdafiəsinin gücləndirilməsi, onlara sosial-məişət və başqa xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılması və bu sahədə çatışmazlıqların aradan qaldırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə təklif və tövsiyələr verilmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Ahıllar Evinə həyata keçirilmiş başçəkmə zamanı müəssisənin yeməkxanasının soyuq olduğu və gigiyena vasitələri ilə təmin olunmadığı, o cümlədən ahıl sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün yaradılan şəraitin qənaətbəxş olmadığı müşahidə edilmişdir.

Ümumilikdə, il ərzində həyata keçirilən başçəkmələrin nəticələri ilə bağlı Ombudsman aidiyyəti dövlət qurumlarına çoxsaylı təkliflərlə müraciətlər ünvanlamış, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilmiş, təkrar başçəkmələr zamanı həmin tövsiyələrin icra vəziyyəti yoxlanılmışdır.

***İnformasiya əldə etmək hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyasında və insan hüquqlarına dair beynəlxalq sənədlərdə informasiya əldə etmək hüququ hər kəsin istənilən məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığını ehtiva edir.

İnformasiya azadlığı insan hüquq və azadlıqlarının təminatçısı olan cəmiyyətin mühüm xüsusiyyətidir və cəmiyyətdə baş verən dinamik proseslərdən xəbər tutmaq vətəndaşların əsas ehtiyaclarından olduğundan informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun icrasına nəzarəti həyata keçirən Ombudsman bu hüququn təmini, müdafiəsi və təbliği sahəsində geniş fəaliyyət həyata keçirməklə informasiya əldə etmək hüququnun daha səmərəli təmininə, informasiya cəmiyyətinin qurulmasına və açıq hökümətin təşviqinə istiqamətlənmiş islahatlara dəstək verir.

İstər informasiya əldə etmək hüququnun təmin edilməsinə dair müraciətlər, istərsə də, Ombudsmanın ünvanına daxil olmuş informasiya sorğuları "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada baxılaraq cavablandırılmışdır.

İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələr, vəzifəli şəxslər tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması halları ilə bağlı Ombudsmanın ünvanına 1 müraciət daxil olmuş, şikayət üzrə araşdırma aparılmış, pozuntu halının aradan

qaldırılması və vətəndaşın informasiya sorğularının cavablandırılması istiqamətində zəruri tədbirlər həyata keçirilərək vətəndaşın hüququ təmin edilmişdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 31.5-ci maddəsinə əsasən inzibati tənbehin tətbiq edilməsi həmin tənbehə səbəb olmuş öhdəliklərin yerinə yetirilməsindən azad etmir. Odur ki, informasiya sahibləri barəsində inzibati tənbehin tətbiqinə dair məhkəmə qərarlarında müvafiq cərimənin təyin edilməsi ilə yanaşı informasiya sahibinin müvafiq informasiya sorğusunun təmin olunması öhdəliyinin də müəyyən olunması vacibdir.

Muxtar respublikada bir çox dövlət qurumlarının rəsmi internet səhifələrindəki onlayn müraciət bölmələrinin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yenilənməsinə ehtiyac vardır. Bu baxımdan informasiya sorğularının onlayn qaydada verilməsinin təmin edilməsi məqsədilə dövlət qurumlarının rəsmi internet səhifələrində mövcud olan onlayn müraciət bölmələrində "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ayrıca "informasiya sorğusu yarımbölməsinin əlavə edilməsi zəruridir. Qeyd olunanlar sorğuçuların müvafiq qurumlara əlçatanlığını təmin etməklə yanaşı, informasiya əldə etmək hüququnun daha effektiv təmin edilməsində və qurumlara münasibətdə yarana biləcək neqativ halların qarşısının alınmasında əhəmiyyət kəsb edir.

İnformasiya əldə etmək hüququnun təbliği, bu hüquqla bağlı məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Kəngərli və Şahbuz rayon icra hakimiyyətlərində maarifləndirmə tədbirləri həyata keçirilmiş, informasiya sahibi olan dövlət orqanlarının, bələdiyyələrin və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə iştirakçılara məlumat verilmişdir. Ümumilikdə, informasiya sahəsində hüquq və azadlıqların təmin edilməsi məqsədilə keçirilmiş tədbirlərdə 287 nəfər iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili və onun Aparatı rəhbəri İnzibati Xətalar Məcəlləsinin 371 – 374, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyətinə malikdir.

Qanunvericiliyin tələblərini nəzərə alaraq Ombudsman informasiya sahibləri tərəfindən "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, xüsusilə verilən informasiya sorğularına qanunla müəyyən olunmuş qaydada və müddətdə cavab verilməsinin zəruriliyini vurğulayaraq müvafiq dövlət orqanlarına tövsiyə məktubları ünvanlamışdır.

***Müraciət etmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə

fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

**Ərizəçi Ç.** Ombudsmana müraciət edərək Şərur Rayon İcra Hakimiyyətinə ünvanladığı müraciətinə yazılı cavab verilmədiyini bildirmiş və pozulmuş hüququnun bərpa olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar Şərur Rayon İcra Hakimiyyətinə müvafiq tövsiyələr verildikdən sonra ərizəçinin müraciətinə qanunvericiliklə müəyyən olunmuş qaydada yazılı əsaslandırılmış cavabın verilməsi təmin olunmuşdur.

**Ərizəçi D.** Ombudsmana müraciət edərək 1994-cü ildə mərhum atasına 800 $m^2$ torpaq sahəsi verildiyini, 2010-2011-ci illərdə həmin torpaq sahəsinin Şahbuz Rayon İcra Hakimiyyəti tərəfindən qanunsuz olaraq onlardan alındığını, bununla bağlı dəfələrlə Şahbuz Rayon İcra Hakimiyyətinə müraciət etdiyini, lakin müraciətlərinə yazılı formada cavab verilmədiyini qeyd etmiş və müraciətlərinə yazılı cavabın verilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar Şahbuz Rayon İcra Hakimiyyətinə müvafiq tövsiyələr verildikdən sonra ərizəçinin müraciətinə qanunvericiliklə müəyyən olunmuş qaydada yazılı cavab verilmişdir.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə əsasən müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər. Müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər.

Həmin Qanunun 14-cü maddəsinə əsasən müraciətinə baxılan vətəndaşın müraciətinə baxılmasının nəticəsi barədə yazılı cavab almaq hüququ vardır.

Qanunvericiliyin qeyd olunan müddəalarından aydın olur ki, vətəndaşların müraciətlərinə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalı, müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara gecikdirilmədən yazılı cavab verilməlidir. Belə ki, vətəndaşların müraciətlərinə cavab verilməməsi və ya heç bir əsas olmadan gecikdirilərək cavab verilməsi onların müraciət etmək hüququnu əhəmiyyətsiz edir.

Vətəndaşların müraciətlərinə cavab verilməməsi və ya heç bir əsas olmadan müraciətlərə cavab verilməsinin gecikdirilməsi ciddi nöqsan hesab olunduğundan bu nöqsanlar aradan qaldırılmalı və gələcəkdə bu və ya buna bənzər halların baş verməməsi üçün vətəndaşların müraciətlərinə baxılmasının nəticəsi barədə onlara qanunvericiliklə müəyyən olunmuş qaydada və gecikdirilmədən yazılı cavab verilməlidir.

***Hüquq və azadlıqların məhkəmə təminatı.*** Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, ədalət mühakiməsinin vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilməsinə təminat verir.

Ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi üzrə yeni

prioritetlərin müəyyən edilməsini və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir.

Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsinin təmin olunması, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün islahatlar aparılmaqdadır.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 1.9-cu maddəsinə əsasən Ombudsmanın məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

Hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə alimentin ödənilməsi ilə bağlı məhkəmə qətnamələrinin icra olunmaması və ya icrasının gecikdirilməsi kimi hallar öz əksini tapmışdır.

Həmin şikayətlər üzrə qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində araşdırmalar aparılmış, Naxçvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət olunmuş, Ombudsmanın səlahiyyətlərinə aid olmayan şikayətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavablar verilmişdir.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli, 2668 saylı Sərəncamında cinayətlərin dekriminallaşdırılması, habelə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz etmə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkumetmə institutlarının daha geniş tətbiq edilməsi, eləcə də digər istiqamətlər üzrə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və daha yüngül rejimli müəssisəyə keçirilmə humanizm siyasətinin təzahürü olmaqla cinayət törətmiş şəxslərin islah edilməsində və onların sosial adaptasiyasında mühüm rol oynayır. Qeyd olunanlar, habelə məhkumların müvafiq sahədə hüquq və qanuni mənafelərinin daha etibarlı qorunması baxımından Ombudsmanın aidiyyəti müraciətləri nəzərə alınmışdır.

**Ərizəçi E.** Ombudsmana müraciət edərək məhkum oğlunun cəzaçəkmə müddətində davranışının, əməyə münasibətinin, oğlunun cəza çəkdiyi müddətdə heç bir rejim pozuntusuna yol verməməsinin nəzərə alınmasını, oğlunun nikahının pozularaq 3 uşağa görə aliment ödəməli olduğunu, o cümlədəm "Hepatit C" xəstəsi olduğunu bildirmiş və oğlunun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin şikayətində qeyd etdiyi məsələnin yerində araşdırılması məqsədilə Müvəkkilin Preventiv qrupu tərəfindən Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinə plandankənar başçəkmə həyata keçirilmiş, məhkumla

təkbətək və konfidensial şəraitdə söhbət aparılmış, söhbət zamanı məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinə müvafiq köməklik göstərilməsi ilə bağlı anasının Ombudsmana müraciət etməsinə heç bir etirazının olmadığını bildirmişdir.

Qeyd etmək lazımdır ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə məhkumun islah olunma prosesinin sürətləndirilməsinə, onun normal sosial faydalı həyata qaytarılmasına yardım edən institutdur.

*Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin I hissəsində təsbit edilmişdir ki, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.*

Məhkəmə qərarlarının vaxtında, düzgün və tam icra olunması, eləcə də icra prosesinə nəzarətin təmin edilməsi həm məhkəmə hakimiyyətinin səmərəliliyinin, həm də məhkəmənin nüfuzunun artırılmasında müstəsna rol oynayır.

Ölkəmizdə məhkəmə qərarlarının icrası mexanizminin təkmilləşdirilməsi, icra sənədləri və icra hərəkətləri üzrə vahid elektron məlumat bazasının yaradılması, maraqlı tərəflər üçün informasiya əlçatanlığının təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsinə baxmayaraq, məhkəmə qərarlarının icrası ilə bağlı problemlər hələ də qalmaqdadır.

Ümumilikdə, məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı daxil olan şikayətlərin əksəriyyəti aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı olmuşdur.

**Ərizəçi Ə.** Ombudsmana müraciət edərək məhkəmə tərəfindən övladının saxlanması üçün alimentin ödənilməsi barədə çıxarılmış məhkəmə qətnaməsinin icra olunmadığını bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətçinin tələbi ilə bağlı aidiyyəti quruma müraciət edilmiş, davam edən icra tədbirləri nəticəsində şikayətçinin tələbi üzrə aliment borcunun ödənilməsi təmin edilmişdir.

*Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır və qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.*

Ombudsman əhalinin peşəkar hüquqi yardımla təmin edilməsi və bununla da hüquq və azadlıqların daha etibarlı müdafiəsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də maarifləndirmə işinin təşkili istiqamətində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası ilə əməkdaşlığı davam etdirmişdir.

Hüquqi yardım almaq üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hüquqi yardımın göstərilməsi həmin şəxslərin hüquq və azadlıqlarının səmərəli müdafiəsinə şərait yaratmaqla yanaşı, ədalət mühakiməsinin daha effektiv həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

## 1.2 İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.***Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Əmək münasibətləri işçi qüvvəsinin istehsal vasitələrinə tətbiqi nəticəsində yaranan iradəvi ictimai münasibətlərdir. Bu münasibətlərin hüquqi tənziminin obyektini isə insanların canlı əməyi, onun təşkili və şərtləri təşkil edir.

Əmək hüquqlarının təmin edilməsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlər iş yerlərində yol verilə bilən qanun pozuntularının tədricən aradan qaldırılmasında və işçilərin sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyətli rol oynamışdır.

Əmək hüquqları ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərdə, əsas etibarilə münasib işlə təmin olunma, qanunvericiliyin tələbləri pozulmaqla işdən azad edilmə, müəssisənin ləğvi və ya ştatların ixtisarı ilə işdən azad olunmuş şəxslərin başqa işlə təmin olunması ilə bağlı hallar öz əksini tapmışdır.

Müraciətlərin araşdırılması zamanı pozulmuş əmək hüquqlarının bərpası məqsədilə Ombudsman tərəfindən səlahiyyətləri daxilində tədbirlər görülmüşdür.

**Ərizəçi F.** Ombudsmana müraciət edərək Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tibb bacısı vəzifəsində işlədiyini, müəssisənin ləğvi ilə əlaqədar işdən azad olunduğunu, himayəsində 2 azyaşlı övladının olduğunu bildirmiş, tibb müəssisələrində münasib işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə müraciət olunmuş, onun maddi və ailə vəziyyəti nəzərə alınaraq işlə təmin olunmuşdur.

**Ərizəçi G.** Ombudsmana müraciət edərək Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində fəhlə-ocaqçı vəzifəsində işlədiyini, işdən azad olunduqdan sonra ona əmək kitabçasının və işdən azad olunma əmrinin surətinin verilmədiyini bildirmiş və məsələ ilə bağlı köməklik göstərilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 87-ci maddəsinə əsasən işçinin əmək fəaliyyəti haqqında sənəd əmək kitabçası hesab edilir. İşdən çıxan işçilərə əmək kitabçası əmək müqaviləsinə xitam verildiyi gün (sonuncu iş günü) verilir.

Əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməli, əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir.

Ərizəçinin müraciəti ilə əlaqədar işçinin pozulmuş hüququnun müdafiəsi məqsədilə aidiyyəti quruma müraciət olunmuş, ona əmək kitabçası, işdən azad olunması barədə əmrin surətinin verilməsinə köməklik göstərilərək tələb təmin edilmişdir.

**Ərizəçi H.** Ombudsmana müraciət edərək sinif rəhbərliyi saxlanılmaqla dərsdən kənar məşğələlərin ona verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət olunduqdan sonra ərizəçinin tələbi təmin edilmişdir.

İşlə təmin olunmaqda köməklik göstərilməsi ilə bağlı müraciətlərə diqqətlə yanaşılmış, bir sıra vətəndaşların işlə təmin edilməsinə nail olunmuşdur.

**Ərizəçi X.** Ombudsmana müraciət edərək maddi və ailə vəziyyətinin yaxşı olmadığını, aidiyyəti quruma etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş və münasib işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti quruma müraciət olunduqdan sonra ona münasib iş təklif olunaraq tələbi təmin olunmuşdur.

Qeyd olunanlarla yanaşı, münasib işlə təmin olunma tələbi ilə bağlı işsiz şəxslər Ombudsmana müraciətlər etmiş, məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə edilən müraciətlərdən sonra bir sıra işsiz şəxslər işlə təmin edilmişdir.

***Sosial təminat hüququ.*** Vətəndaşların, xüsusilə sosial cəhətdən həssas qrupdan olan şəxslərin hüquqlarının müdafiəsi dövlətin sosial siyasətinin prioritet istiqamətlərindəndir. Sosial təminat hüququ dövlətin sosial funksiyası ilə birbaşa bağlıdır və dövlətin iqtisadi inkişafından asılı olaraq realizə edilir.

Azərbaycan Respublikası Konstitusiyasında ehtiva olunmuş bu hüquqdan özünü saxlamaq qabiliyyətindən məhrum olmuş, yaxud başqalarına nisbətən cəmiyyətdə daha çox sosial müdafiəyə ehtiyacı olan şəxslər öz yaşayışlarını təmin etmək üçün yararlanırlar.

Sosial təminat hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olan müraciətlərə hər zaman xüsusi diqqətlə yanaşılmışdır.

Bu sahə ilə bağlı daxil olan müraciətlərin bir qismi pensiya hüququnun təmin edilməsi, ünvanlı dövlət sosial yardımının verilməsi və əlillik vəziyyətinin qiymətləndirilməsi üçün göndərişin müəyyən edilmiş qaydada rəsmiləşdirilməsi ilə əlaqədar olmuşdur. Pensiyaların və ya müavinətlərin təyin edilməsi və ya yenidən hesablanması, ünvanlı dövlət sosial yardımın verilməsi, o cümlədən əlilliyin qiymətləndirilməsi ilə bağlı olan bu müraciətlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi İ.** Ombudsmana müraciət edərək ona pensiya təyin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Müraciət ilə əlaqədar Ombudsmanın aidiyyəti quruma müraciətindən sonra ərizəçiyə pensiya təyin olunaraq tələb təmin olunmuşdur.

**Ərizəçi J.** Ombudsmana müraciət edərək arvadının orqanizmin funksiyalarının pozulmasına görə əlilliyinin qiymətləndirilməsi üçün həkim-məsləhət komissiyası tərəfindən göndərişin verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə müraciət edildikdən sonra ərizıçənin tələbi təmin edilərək müvafiq göndəriş Tibbi-Sosial Ekspert Komissiyasına göndərilmişdir.

**Ərizəçi K.** Ombudsmana müraciət edərək 1983-cü ildən sümük vərəmi xəstəliyi ilə əlaqədar orqanizmin funksiyalarının 61-80 faizədək pozulması səbəbindən əlilliyə görə əmək pensiyası aldığını, 2021-ci ilin fevral ayından pensiyasının dayandırıldığını, əlilliyinin yenidən qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişin verilməsi üçün etdiyi müraciətlərin nəticəsiz qaldığını, əlilliyinin qiymətləndirilməsi ilə bağlı həkim-məsləhət komissiyası tərəfindən göndərişin verilməsi və ya bundan imtina edilməsi barədə

rəsmi qərarın qəbul olunmadığını bildirmiş və əlilliyinin bərpa edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən şəxsin orqanizminin funksiyalarının pozulması faizi, səbəbi və müddəti Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən onun əlilliyinin qiymətləndirilməsi keçirildikdən sonra qəbul edilmiş qərar əsasında müəyyən edilir. Şəxsin əlilliyinin qiymətləndirilməsi, o cümlədən əlilliyin təkrar qiymətləndirilməsi onun tibbi-sosial ekspertiza müayinəsinə göndərişi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil olduğu tarixdən 10 (on) iş günü müddətində, əlavə araşdırma tələb edildiyi halda isə 15 (on beş) iş günü müddətinə uzadılmaqla keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 yanvar 2020-ci il tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 1.2-ci bəndinə əsasən şəxsə göndəriş tibb müəssisələrinin həkim-məsləhət komissiyaları və ya hərbi-həkim komissiyaları tərəfindən verilir.

TSEK 10 (on) iş günündən çox olmamaqla göndərişdə qeyd olunmuş məlumatlar əsasında şəxsin əlilliyini qiymətləndirir, əlilliyin müəyyən olunmasına və ya səbəblərini göstərməklə, imtinaya dair qərar qəbul edir. Əlavə araşdırma tələb olunduğu hallarda, TSEK-in müraciəti əsasında bu müddət Agentlik tərəfindən 15 (on beş) iş gününədək uzadıla bilər.

"Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 2.8-ci bəndinə əsasən Komissiya tərəfindən göndərişin verilməsindən imtina barədə əsaslandırılmış qərar göndəriş üçün müraciət edilən gün qəbul edilir. Həmin qərardan "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq, inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

Əlilliklə bağlı müraciətlər üzrə aparılmış araşdırmaların təhlili onu göstərir ki, əlilliyin qiymətləndirilməsi ilə bağlı müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş göndərişlərə dair qərarın qəbul edilməsi prosesinə yanaşma dəyişdirilməli, həkim məsləhət komissiyaları ilə əlaqələndirmə işi təkmilləşdirilməli və inkişaf etdirilməli, əlçatanlıq və operativlik təmin olunmalı, bununla da mövcud süründürməçilik halları aradan qaldırılmalıdır.

***Sağlamlığın qorunması hüququ.*** Sağlamlığın qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir.

Sağlamlıq fərdin həyat fəaliyyəti ilə birbaşa bağlı olduğuna görə ona olan münasibət və onunla bağlı məsələlərin əsası konstitusion hüquq səviyyəsində müəyyən edilmişdir.

Ölkəmizdə əhalinin sağlamlığının qorunması hüququnun səmərəli təmini məqsədilə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada da tibb müəssisələrinin kadr və maddi-texniki bazası əsaslı surətdə müasirləşdirilərək möhkəmləndirilməkdədir.

Sağlamlığın qorunması hüququ ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, hüquqların pozulması halları müəyyən edildiyi təqdirdə onların bərpası üzrə zəruri tədbirlər görülmüşdür.

Sağlamlıq hüququnun müdafiəsi ilə bağlı müraciət edən şəxslər əsas etibarilə aztəminatlı ailələrdən olan şəxslərdir. Bu müraciətlərdə əsasən müayinə və müalicənin təşkili, imtiyazlı qrupdan olan şəxslərin pulsuz dərman preparatarları ilə təmin edilməsi ilə bağlı problemlər öz əksini tapmışdır.

Ombudsmanın aidiyyəti üzrə müraciətlərindən sonra bir sıra şəxslərin müvafiq tibbi yardımla təmin edilməsi, habelə müayinə və müalicənin təşkili məqsədilə tibb müəssisələrinə göndərilməsi təmin edilmişdir.

**Ərizəçi Q.** Ombudsmana müraciət edərək şəkərli diabet xəstəsi olan 6 yaşlı nəvəsinə dərman preparatlarının verilməsinə və test çubuqlarının sayının artırılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə müraciət edildikdən sonra ərizəçinin şəkərli diabet xəstəsi nəvəsinə dərman preparatlarının və test çubuqlarının verilməsi tələbi təmin edilmişdir.

**Ərizəçi L.** Ombudsmana müraciət edərək xroniki böyrək çatışmazlığı xəstəsi olduğundan müalicəsi üçün dərman preparatlarının verilməsinə, ixtisaslaşdırılmış müayinə və müalicə olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti quruma müraciət edildikdən sonra ərizəçiyə müvafiq köməklik göstərilərək tələb təmin edilmişdir.

**Ərizəçi M.** Ombudsmana müraciət edərək səhhəti və maddi vəziyyəti ilə əlaqədar müayinə və müalicə olunması üçün tibb müəssisəsinə göndərilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti quruma müraciət edildikdən sonra ərizəçi təcili tibbi yardım maşını ilə tibb müəssisəsinə gətirilmiş və müayinə olunaraq xəstəliyi ilə əlaqədar ambulator şəraitdə müalicə olunmasına köməklik göstərilmişdir.

***Təhsil hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir və maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

Təhsil hüququ insanın əsas sosial-mədəni hüquqlarından biridir. Təhsil yalnız bir hüquq kimi deyil, eyni zamanda digər insan hüquqlarının tam və effektiv həyata keçirilməsi üçün də vasitə kimi görülür, hər bir insanın inkişafına və ləyaqətinin dərk olunmasına, insan hüquqlarına və əsas azadlıqlara hörmətin möhkəmləndirilməsinə, eyni zamanda hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmasına imkan yaradır.

Gənc nəslin, yeniyetmə və uşaqların hərtərəfli inkişafı, təhsili, intellektual səviyyəsinin yüksəldilməsi, fiziki tərbiyəsi, sağlamlığı, zəngin mənəvi dəyərlər və vətənpərvərlik ruhunda yetişməsi, o cümlədən təhsil infrastrukturunun yenilənməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilsə də, təhsil sistemində bəzi problemlər hələ də qalmaqdadır.

Təhsil hüququnun təmin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində pozuntu halları aşkar

edilmiş, problemlərin təhlili aparılmış və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı təklif və tövsiyələr verilmişdir.

**Ərizəçi N.** Ombudsmana müraciət edərək nitq pozuntusu olan nəvəsinin məktəbəqədər təhsil müəssisəsinə qəbul edilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət edilmiş, ərizəçinin nitq pozuntusu olan nəvəsi məktəbəqədər təhsil müəssisəsinə yerləşdirilərək tələb təmin edilmişdir.

**Ərizəçi O.** Ombudsmana müraciət edərək sağlamlıq imkanları məhdud olan övladlarının təhsilə cəlb olunmasına və məktəb ləvazimatları ilə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti quruma müraciət edildikdən sonra ərizəçinin övladları distant təhsilə cəlb olunmuş və onlar zəruri məktəb ləvazimatları ilə təmin edilmişdir.

***Mənzil və mülkiyyət hüququ.*** Məlumdur ki, hüquqi dövlət quruluşu olan cəmiyyətlərdə mülkiyyət-iqtisadi münasibətlər həmişə hüquqi təminata bağlıdır. Mülkiyyət toxunulmazlığı, vətəndaşların şəxsi işlərinə özbaşına müdaxilənin yolverilməzliyi, mülki hüquqların maneəsiz həyata keçirilməsi, mülkiyyət hüququnun bütün formalarının bərabərliyi prinsiplərini təsbit etməklə, Konstitusiyamız mülkiyyət hüququnun müdafiəsini dövlətimizin ən mühüm vəzifələrindən biri hesab edir.

Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin bir qismi vətəndaşların mənzil, mülkiyyət hüquqlarının pozulması ilə bağlı olmuşdur.

**Ərizəçi Ö.** Ombudsmana müraciət edərək qardaşının bankdan kredit götürdüyünü, borclarını tam ödəməsinə baxmayaraq ipoteka müqaviləsi ilə yüklü edilmiş fərdi yaşayış evlərinin üzərindən ipotekanın götürülmədiyini, bankın ləğvedicisinin yüklülüyün götürülməsi barədə ərizə verməkdən imtina etdiyini bildirmiş və məsələ ilə bağlı ona müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən müraciətlə əlaqədar aidiyyəti qurumlara müraciət edilmiş, əmlakların üzərindən yüklülüyün götürülməsinə müvafiq köməklik göstərilərək şikayətçinin pozulmuş hüququ bərpa edilmişdir.

**Ərizəçi P.** Ombudsmana müraciət edərək ona məxsus olan torpaq sahəsində özünə mənzil tikdiyini, lakin müvafiq kommunal xidmətlərdən istifadə etmək üçün aidiyyəti qurumlara etdiyi müraciətlərin nəticəsiz qaldığını, su və kanalizasiya xidmətlərinin təmin olunmadığını bildirmiş və ona müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən şikayətlə əlaqədar aidiyyəti orqanlara müraciət edildikdən sonra ərizəçinin tələbi təmin edilərək mənzilində içməli su təchizatı və kanalizasiya sistemi qurulmuşdur.

Qeyd edilənləri nəzərə alaraq, aidiyyəti səlahiyyətli dövlət qurumları tərəfindən mövcud sahəyə nəzarətin gücləndirilməsi və narahatlıq doğuran halların qarşısının alınması, o cümlədən mövcud problemlərin aradan qaldırılması məqsədilə zəruri tədbirlərin görülməsi məqsədəmüvafiqdir.

Qeyd etmək lazımdır ki, mülkiyyət hüququnun müdafiəsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin əksəriyyəti Naxçıvan Muxtar Respublikasında vətəndaşların pozulmuş mülkiyyət hüquqları ilə bağlı olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsində qeyd olunur ki, hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Mülkiyyət hüququnun pozulması ilə əlaqədar 2023-cü ilin ötən dövrü ərzində Müvəkkilə daxil olmuş şikayətlərdə hüququ pozuntusu baş verdiyi vaxtdan 1 ildən artıq müddət keçdiyindən, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq həmin müraciətlərə baxılmaqdan imtina edilmiş və vətəndaşlara vurulmuş zərərin ödənilməsi ilə bağlı aidiyyəti üzrə müvafiq məhkəməyə müraciət etmək hüququ izah olunmuşdur.

## 1.3 Əhali qruplarının hüquqlarının müdafiəsi

***Şəhid ailələri və müharibə veteranlarının hüquqlarının müdafiəsi.*** Ölkəmizdə həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən birini Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, müharibə veteranları və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması təşkil edir.

Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin və rifah halının yaxşılaşdırılması Ombudsman tərəfindən diqqətdə saxlanılmış, bu kateqoriyadan olan şəxslərə xüsusi diqqət və hərtərəfli dövlət qayğısı göstərilmiş, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunmuş, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilmişdir. Həmçinin Ombudsman aparatının əməkdaşları tərəfindən şəhid ailələri ziyarət olunmuş, ailələrin qayğıları, hüquq və azadlıqların təmini istiqamətində digər məsələləri dinlənilmişdir.

Ombudsman və onun əməkdaşları müharibə iştirakçıları və şəhid ailələrinin iqtisadi, sosial və mədəni baxımdan dəstəklənməsi, bu sahədə ictimai həssaslığın daha da gücləndirilməsi üçün bu şəxslərlə daim görüşlər keçirərək onların problemləri ilə yaxından maraqlanmışlar.

Ombudsmanın ünvanına şəhid ailələrindən, müharibə veteranlarından və müharibə ilə bağlı əlilliyi olan şəxslərdən daxil olmuş müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, hüquqlarının səmərəli təmin edilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür.

**Ərizəçi R.** Ombudsmana müraciət edərək qardaşının Sədərək uğrunda gedən döyüşlərdə şəhid olduğunu, şəhidin şəklinin böyüdülərək yol kənarında yerləşdirilməsi məqsədilə inzibati ərazi dairəsi üzrə nümayəndəliyə müraciət etdiyini, lakin etdiyi müraciətin nəticəsiz qaldığını bildirmişdir.

Ombudsman tərəfindən şəhid adının əbədiləşdirilməsinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi istiqamətində aidiyyəti dövlət orqanlarına

müraciət edilərək ərizəçinin qardaşının şəkli inzibati ərazi vahidləri üzrə yol kənarına vurularaq tələb təmin edilmişdir.

**Ərizəçi S.** Ombudsmana müraciət edərək Babək qəsəbə 1 nömrəli tam orta məktəbə Babək rayonunun ilk şəhidi olan atası Mahmudov Vəli Nuruş oğlunun adının verildiyini, lakin nə məktəbdə, nə də məktəbin möhüründə atasının adı ilə bağlı heç bir simvola rast gəlmədiyini bildirmiş, məktəbdə atasının adını əks etdirən simvolların təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti qurumlara müraciət edilərək məktəbin adında və möhüründə şəhidin adı əks olunaraq tələb təmin edilmişdir.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi.*** İstintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, hauptvaxtların müasir standartlara uyğunlaşdırılması məqsədilə yenidən qurulmasına, saxlanılma şəraitinin və tibbi-sanitariya xidmətinin yaxşılaşdırılmasına, bu müəssisələrdə insan hüquqlarının etibarlı təmin olunmasına yönəlmiş tədbirlər davam etdirilmişdir.

Tutulmuş, həbs edilmiş və ya məhkum olunmuş şəxslərin və onların ailə üzvlərinin müraciətlərinin araşdırılması zamanı həmin şəxslərin işgəncəyə və qeyri-insani rəftara məruz qalması məsələləri, sağlamlığının qorunması, müraciət etmək, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunması, hüquqi yardım almaq və qanunla müəyyən edilmiş digər hüquqlarının təmin olunması diqqətdə saxlanılmışdır.

“Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 2668 nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası üzrə tədbirlər davam etdirilmişdir.

**Məhkum Ş.** Ombudsmana müraciət edərək ailə üzvlərinin yaşayış yeri üzrə Bakı şəhərindəki cəzaçəkmə müəssisəsinə köçürülməsi üçün etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş və müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Məsələ ilə əlaqədar Ombudsman tərəfindən aidiyyəti quruma müraciət edildikdən sonra məhkumun tələbi təmin edilərək, o Bakı şəhərindəki eyni rejimli cəzaçəkmə müəssisəsinə köçürülmüşdür.

**Məhkum T.** Ombudsmana müraciət edərək 3 uşağının olduğunu, epilepsiya xəstəsi olan azyaşlı uşağına ödənilən müavinətin ailəsinin yeganə gəlir mənbəyi olduğunu bildirmiş, ailəsinin maddi vəziyyəti nəzərə alınaraq ünvanlı dövlət sosial yardımın verilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən məhkumun ərizəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edilmiş və qanunamüvafiq olaraq ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilərək ərizəçinin tələbi təmin edilmişdir.

**Məhkum U.** Ombudsmana müraciət edərək mədə-bağırsaq xəstəliyindən əziyyət çəkdiyini, 1 il əvvəl müalicə olunması üçün Bakı şəhərinə göndərilməsinə, eləcə də Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin həkimi tərəfindən mütəmadi olaraq müalicə olunmasına baxmayaraq heç bir nəticənin olmadığını bildirmiş, ixtisaslaşdırılmış müayinə və müalicə olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən məhkumun ərizəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edildikdən sonra, məhkumun keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi üçün o tibb müəssisəsinə göndərilmiş müayinələrin nəticəsinə uyğun müalicə olunaraq tələbi təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 25 nəfər məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 1 nəfər məhkumun cəzaçəkmə müəssisəsinin növü dəyişdirilmişdir. Əfv məsələləri ilə bağlı icraata daxil olmuş müraciətlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) göndərilmiş və Azərbaycan Respublikası Prezidentinin 08 may 2023-cü il tarixli Sərəncamı ilə 1 nəfər məhkum barəsində əfv etmə tətbiq olunmuşdur. Ümumilikdə, 2023-cü il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 27 məhkum barəsində humanist tədbirlər tətbiq edilmişdir.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılmışdır. Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilmiş, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilmiş, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılmışdır. 2023-cü il ərzində ümumilikdə 109 cəza çəkməkdən azad edilmiş şəxs barəsində sosial adaptasiya tədbirləri tətbiq edilmişdir ki, bunlardan 106 şəxsə birdəfəlik pul müavinəti verilmiş, 3 şəxs isə özünüməşğulluq proqramına cəlb olunmuşdur.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Silahlı Qüvvələrin şəxsi heyətinə dövlət qayğısının artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üzrə həyata keçirilən tədbirlər hərbi qulluqçuların hüquqlarının səmərəli təmin edilməsində və cəmiyyətdə hərbi xidmətin nüfuzunun daha da artmasında böyük əhəmiyyət kəsb edir.

Hərbi qulluqçular və onların ailə üzvlərindən Ombudsmana daxil olmuş müraciətlərdə əsasən məhrum olduqları hərbi rütbənin bərpa edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi xidmətdə olduğuna dair arayış və digər zəruri sənədlərin verilməsi, sığorta ödənişinin ödənilməsi, habelə hərbi qulluqçuların, ehtiyatda və istefada olan hərbi qulluqçuların və onların ailə üzvlərinin bəzi sosial problemləri, o cümlədən mənzil təminatı ilə bağlı məsələlər öz əksini tapmışdır

Ombudsman tərəfindən hərbi qulluqçular və onların ailə üzvlərindən daxil olmuş müraciətlər üzrə araşdırmalar aparılmış, aidiyyəti dövlət qurumlarına sorğular verilmiş, onların hüquqlarının təmini və müdafiəsi istiqamətində müvafiq tədbirlər görülmüşdür.

***Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi.*** Gender bərabərliyinin təbliği və təmin olunması, habelə qadın hüquqlarının müdafiəsi məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınmasında səmərəli fəaliyyət təşkil olunmuşdur.

2023-cü il ərzində Ombudsmanın icraatına daxil olan 274 müraciətin 80-i (42 şikayət, 38 ərizə olmaqla), yəni 29.2%-i sosial kateqoriyasına görə qadınlar tərəfindən edilmişdir.

Qadın hüquqları ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərə xüsusi həssaslıqla yanaşılmış, şikayətlərdə öz əksini tapmış problemlərin həlli məqsədilə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş, hüquq pozuntularının və çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlər görülmüşdür.

**Ərizəçi Ü.** Ombudsmana müraciət edərək səhhətinə uyğun münasib işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti orqana müraciət edildikdən sonra, qadın münasib işlə təmin edilmişdir.

**Ərizəçi V.** Ombudsmana müraciət edərək yeni tikdirdiyi yaşayış evinə su xəttinin çəkilməsi məqsədilə Naxçıvan Şəhər İcra Hakimiyyətinə və Naxçıvan Sukanalizasiya İdarəsinə dəfələrlə müraciət etdiyini, lakin müraciətlərinə baxılmadığını bildirmiş və yaşayış evinə su xəttinin çəkilməsinə müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti orqanlara müraciət edilmiş, qadının tələbi təmin edilmişdir.

**Ərizəçi Y.** Ombudsmana müraciət edərək şəhid arvadı olduğunu, oğlunun işsiz olduğunu, şəhid ailə üzvü kimi aldığı təqaüdlə oğlunun 6 nəfərdən ibarət ailəsinə maddi yardım etdiyini, oğlunun münasib işlə təmin olunmasına müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən aidiyyəti qurumlara müraciət edildikdən sonra, ərizəçinin oğlu Sədərək rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin Nasos stansiyaları sahəsində maşinist-mexanik vəzifəsinə təyin olunmuşdur.

Ümumiyyətlə qadınlar tərəfindən Ombudsmanın ünvanına daxil olan müraciətlərin əksəriyyəti əmək, məşğulluq və sosial təminat məsələləri ilə bağlı olmuş, qadınların öz məşğulluğunu təmin etmələri üçün onlara münasib işlər təklif olunaraq müvafiq köməklik göstərilmişdir.

Yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin, xüsusən risk qrupuna daxil olan qadınların sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması insan hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Zorakılığın bütün formalarına, eləcə də məişət zorakılığına son qoyulması insan hüquqlarının müdafiəsi öhdəliyini götürmüş istənilən dövlətin prioritet məqsədi olmalıdır. Məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının öz vəzifələrini yerinə yetirməsi bu məqsədin reallaşmasına və mümkün hüquq pozuntularının qarşısının alınmasına mühüm töhfə verə bilər.

Bu baxımdan Ombudsman zorakılığın bütün formalarının yolverilməzliyinin, gender bərabərliyinin təmin olunmasının, məişət zorakılığının qarşısının alınmasının və zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsinin vacibliyini vurğulayaraq, muxtar respublikada məişət zorakılığı ilə mübarizə sahəsində aidiyyəti dövlət qurumlarına effektiv tədbirlərin həyata keçirilməsini, mühafizə

orderlərinin verilməsini, məişət zorakılığı qurbanlarına daha çevik dəstəyin göstərilməsini, baş vermiş zorakılıq halları ilə əlaqədar onların vaxtında və hərtərəfli yardımla təmin edilməsini tövsiyə edir.

***Uşaq hüquqlarının müdafiəsi.*** Uşaqların hüquqlarının müdafiəsi və təbliği Ombudsmanın daim diqqət mərkəzində olmuşdur.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə, əsasən alimentin ödənilməsi və ünsiyyət hüququnun təmini ilə bağlı məhkəmə qərarlarının icrası, sağlamlıq və təhsil hüququ, müəssisəyə yerləşdirmə və bu kimi digər məsələlər öz əksini tapmışdır.

Uşaq hüquqlarının etibarlı və səmərəli müdafiəsi, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının effektiv təmini məqsədilə araşdırmalar aparılmış, müvafiq dövlət qurumlarına müraciətlər edilmiş, problemlərin həlli istiqamətində zəruri addımlar atılmış, bir sıra hallarda müsbət nəticələr əldə edilmişdir.

**Ərizəçi Z.** Ombudsmana müraciət edərək psixi inkişaf ləngiməsi və nitq qüsurlu övladının məktəbəqədər təhsil müəssisəsinə qəbul edilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət edildikdən sonra ərizəçinin övladı məktəbəqədər təhsil müəssisəsinə yerləşdirilərək tələbi təmin olunmuşdur.

**Ərizəçi A.** Ombudsmana dəfələrlə müraciət edərək övladı ilə ünsiyyət hüququnun təmin olunması məqsədilə çıxarılmış məhkəmə qətnaməsinin icra olunmadığını, övladına təzyiq göstərilərək onun psixologiyasının pozulduğunu, görüşməsinə süni maneələr yaradıldığını, bununla bağlı dəfələrlə müvafiq orqanlara müraciət etdiyini, lakin heç bir tədbir görülmədiyini bildirmiş və məsələ ilə əlaqədar ona müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ərizəçinin müraciətləri ilə əlaqədar müvafiq araşdırmalar aparılmış, uşaqla ünsiyyətdə olmaq hüququnun təmin edilməsi, bu hüququn həyata keçirilməsinə şərait yaradılması üçün aidiyyəti dövlət orqanlarına tövsiyələr verilmiş, o cümlədən müvafiq dövlət orqanlarının əməkdaşlarının iştirakı ilə görüşlər keçirilmiş, onlarla maarifləndirici söhbətlər aparılaraq müvafiq tədbirlər görülmüşdür.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması və onların sosial statusunun bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Belə ki, hesabat dövründə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial xidmət, inklüziv təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılması Ombudsman tərəfindən davamlı monitorinq olunmuş, bu kateqoriyaya aid uşaqların sosial müdafiəsi və cəmiyyətə fəal inteqrasiyası diqqət mərkəzində saxlanılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının müdafiəsinə xüsusi önəm verən Ombudsman əhalinin həssas kateqoriyasından olan sağlamlıq imkanları məhdud uşaqlara təyin olunan diaqnoz əsasında çoxluq təşkil edən xəstəliklərin anadangəlmə, xəstəlik və ya zədə nəticəsində sonradan yaranmasının səbəblərinin aşkarlanması, xəstəliklərin erkən diaqnostikası, uşaqlarda yarana biləcək bu cür xəstəliklərin qarşısının alınmasına yönəldilmiş kompleks tibbi-psixoloji və

profilaktik tədbirlərin həyata keçirilməsi vəziyyətinin müəyyən olunması məqsədilə monitorinq həyata keçirilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqlara təyin olunan diaqnoz üzrə çoxluq təşkil edən xəstəliklərin profilaktikası və erkən diaqnostikası üzrə müvafiq tədbirlərin görülməsi istiqamətində aidiyyəti orqana müvafiq təklif və tövsiyələr verilmişdir.

***Ahılların hüquqlarının müdafiəsi.*** Sosial cəhətdən həssas qrupa aid olan ahıl şəxslərin hüquqlarının səmərəli təmin edilməsi və onlara sosial dəstək imkanlarının artırılması məqsədilə Ombudsman tərəfindən aidiyyəti səlahiyyətli dövlət qurumuna müraciətlər edilmişdir.

Ahıl vətəndaşların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyasının beynəlxalq standartlar səviyyəsində qurulması Ombudsman tərəfindən davamlı araşdırılmış, onlara göstərilən tibbi-sosial xidmətlərin, asudə vaxtlarının təşkili və digər hüquqların təmin olunması vəziyyəti nəzarətdə saxlanılmış, Ahıllar Evinə başçəkmələr həyata keçirilmiş, orada olan şəxslərlə fərdi və konfidensial söhbət aparılmış, müəssisə rəhbərinə və əməkdaşlarına hüquqi məsləhətlər və tövsiyələr verilmişdir.

Ahıllara göstərilən sosial müdafiə və səhiyyə xidmətlərinin keyfiyyət səviyyəsinin artırılması üzrə tədbirlərin gücləndirilməsi, onların sosial-məişət xidmətlərinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsi məqsədəmüvafiqdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi, onların cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində Ombudsman tərəfindən həyata keçirilən tədbirlər davam etdirilmişdir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin aparılmasında köməyin göstərilməsi, tibb müəssisələrinə və reabilitasiya mərkəzlərinə göndərişlərin verilməsi, dərman preparatları və köməkçi vasitələrlə təminat məsələləri öz əksini tapmışdır. Bu qəbildən olan müraciətlər üzrə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilmiş və problemlərin həlli istiqamətində zəruri tədbirlər görülmüşdür.

Müraciətlər əsasında aparılan təhlil nəticəsində məlum olmuşdur ki, tibbi-sosial ekspert komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsinə baxmayaraq, hələ də bu sahədə problemlər mövcuddur. Bir sıra hallarda elektron sistemə daxil edilən göndərişlərin natamam tərtibi, şəxsin əlillik vəziyyətini müəyyən etməyə əsas yaradan zəruri qeydlərin göndərişdə olmaması şəxsə əlilliyi ilə bağlı qərar verilməsində çətinliklər yaradır. Belə ki, həkim məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş bir sıra göndərişlər müəyyən edilmiş tələblərə cavab vermədiyi üçün əlillik dərəcəsinin qiymətləndirilməsindən imtina edilir.

**Ərizəçi B.** Ombudsmana müraciət edərək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən olunmuş şəxs olduğunu, bədən üzvlərinin funksiyasının yerinə yetirmə qabiliyyətini bərpa etmək məqsədilə ona “ortez” cihazının verilməsi ilə bağlı etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş və məsələ ilə bağlı müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

Ombudsman tərəfindən ərizəçinin müraciəti ilə əlaqədar aidiyyəti quruma müraciət edilmiş, ona “ortez” cihazının verilməsi tələbi təmin edilmişdir.

Qeyd olunan hallarla bağlı əlilliyin müəyyən olunması, yenidən qiymətləndirilməsi, habelə göndərişlərin verilməsi istiqamətində mövcud sahədə nöqsanların aradan qaldırılması üçün Ombudsman tərəfindən aidiyyəti qurumlara müraciət olunmuş, müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr verilmişdir.

***Miqrantların hüquqlarının müdafiəsi.*** Miqrantların hüquqlarının təmin olunması məsələləri Ombudsmanın diqqət mərkəzində olmuş, bu istiqamətdə hüquq pozuntularının qarşısının alınması məqsədilə mütəmadi olaraq başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərin beynəlxalq və milli qanunvericiliyə uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyəti araşdırılmışdır.

Ombudsmanın Preventiv qrupunun üzvləri tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin tabeliyində olan və Naxçıvan şəhərində yerləşən Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə həyata keçirilmiş başçəkmələr zamanı orada könüllü yerləşdirilən miqrantlarla fərdi və konfidensial şəraitdə söhbət aparılmış və saxlama şəraiti, işçi heyətin onlarla rəftarı, qidanın keyfiyyəti, görüş hüququnun, digər hüquq və azadlıqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti yerində yoxlanılmışdır.

# II FƏSİL
## Beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlıq:

Hesabat dövründə Ombudsman insan hüquq və azadlıqlarının müdafiəsi, hüquqi, elmi-analitik, informasiya və metodiki məsələlər üzrə öz fəaliyyətini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə əlaqələndirmiş, Ombudsman və təsisatın əməkdaşları Bakı şəhərində keçirilmiş Qadınların Beynəlxalq Konfransında, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) Azərbaycan Respublikasındakı nümayəndəliyinin təşkilatçılığı ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBİLAZE2)" layihəsi çərçivəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və 18 İyun-İnsan Hüquqları Gününə həsr olunmuş "Həssas miqrantların hüquqlarının təmin edilməsi. Miqrasiya və sığınacaq idarəçiliyi. Monitorinq mexanizmləri" mövzusunda Naxçıvanda keçirilmiş tədbirdə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində "Beynəlxalq humanitar hüquq çərçivəsində xüsusi kateqoriyaya aid şəxslərin hüquqlarının müdafiəsinin praktiki aspektləri" mövzusunda keçirilmiş seminarda, həmçinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunmuş "İnsan Hüquqları - 75 Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmişdir.

# III FƏSİL
# HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

**İnsan hüquqları sahəsində maarifləndirmə.** Ombudsman tərəfindən əhalinin müxtəlif kateqoriyalarının hüquqi maarifləndirilməsinə xüsusi diqqət göstərilmişdir. Ombudsmanın təşkilatçılığı və dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, o cümlədən media nümayəndələrinin iştirakı ilə insan hüquqlarının müxtəlif istiqamətlərinə dair hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, eyni zamanda təsisat əməkdaşları digər qurumlar tərəfindən keçirilmiş tədbirlərdə məruzəçi qismində iştirak etmişlər.

Ombudsman tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə, ümumilikdə, 71 müəssisədə 49 plan üzrə, 55 plandankənar olmaqla, 104 tədbir (tədbir, görüş, bilik yarışı, aksiya və sair) həyata keçirilmiş və bu tədbirlərdə 6214 nəfər iştirak etmişdir.

2023-cü ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində olmuş, Əlahiddə Ümumqoşun Ordu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış Tədbirlər Planına uyğun olaraq muxtar respublika ərazisindəki hərbi hissə və birləşmələrdə müxtəlif tədbirlər keçirilmişdir. Tədbirlər Planına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun muxtar respublikadakı hərbi hissə və birləşmələrində 12, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavalarında isə 19 tədbir keçirilmişdir.

Həmçinin 2023-cü ildə Preventiv qrup Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki postlarında olmuş, ərzaq anbarlarına və hərbi sirr təşkil etməyən digər obyektlərə baxış keçirmiş, şəxsi heyətlə fərdi və ümumi söhbətlər aparmış, hüquqi maarifədirmə tədbirləri keçirmişdir.

Bundan başqa 2023-cü ildə Ombudsman hərbi qulluqçularla görüşmüş, hərbi qulluqçuların hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi və rəftar məsələlərinin araşdırılması məqsədilə əsgər heyəti ümumi və fərdi şəkildə qəbul edilərək konfidensial qaydada dinlənilmiş, hüquqi maarifləndirici söhbət aparılmışdır.

2023-cü ildə Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə Tədbirlər Planına uyğun olaraq cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 12 tədbir keçirilmiş, məhkumlar və müəssisə əməkdaşları arasında məhkumların hüquqlarının daha səmərəli müdafiəsinin təmin olunması, qanunlara hörmət ruhunun aşılanması üzrə maarifləndirici söhbətlər aparılmış, hüquq və vəzifələr izah olunmuşdur.

Hesabat dövründə Ombudsmanın və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərlə görüş keçirilmiş, onların sosial mühitə uyğunlaşdırılması, özünüməşğulluğun təmin edilməsi, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması ilə bağlı Ombudsmana müraciət etmək hüquqları izah olunmuşdur.

Əlavə olaraq qeyd etmək lazımdır ki, muxtar respublikada əhalinin sağlamlığının qorunması və sağlamlıq hüququnun müdafiəsi ilə bağlı Ombudsman

və Səhiyyə Nazirliyinin birgə təsdiq etdiyi Tədbirlər Planına uyğun mütəmadi olaraq səhiyyə müəssisələrində maarifləndirici tədbirlər həyata keçirilmişdir. Bunun davamı olaraq Ombudsman və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının müdafiəsi milli hüquq kontekstində" və "Səhiyyənin inkişafında ulu öndər Heydər Əliyevin rolu" mövzularında tədbirlər keçirilmişdir.

2023-cü il ərzində Ombudsman tərəfindən milli və beynəlxalq əhəmiyyətli günlərin qeyd olunması ilə əlaqədar 50 tədbir keçirilmişdir.

Ombudsman təsisatı tərəfindən "Sağlamlıq imkanları məhdud uşaqların hüquqi müdafiəsi" adlı məlumat kitabçası və "Mənim hüquqlarım" adlı vəsait hazırlanaraq kitabxanalara paylanılmışdır.

***İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyətləri ilə əməkdaşlıq.*** İnsan hüquqlarının müdafiəsi sahəsində səmərəliliyin artırılması məqsədilə Ombudsman vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa böyük önəm verir.

Ombudsmanın təşəbbüsü və təşkilatçılığı, habelə təsisat əməkdaşlarının iştirakı ilə qeyri-hökümət təşkilatlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə insan hüquqlarının prioritet istiqamətlərinə həsr olunmuş çoxsaylı tədbirlər təşkil edilmişdir.

Ombudsmanın "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri, onun nümayəndə heyəti və Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzində reabilitasiya keçən 11 nəfərdən ibarət həssas qrupdan olan lider qızlarla görüşü olmuşdur.

2023-cü ildə Ombudsman və Hüquq və İnsan Haqları İnstitutunun (İnstitut) İdarə Heyətinin sədri arasında görüş keçirilmiş, Hüquq və İnsan Haqları İnstitutu ilə Ombudsman aparatı arasında əməkdaşlığın gələcək perspektivləri müzakirə edilmişdir.

2023-cü ildə Ombudsman və muxtar respublikanın qeyri-hökumət təşkilatlarının nümayəndələri arasında görüş keçirilmiş, qanunvericiliyə uyğun olaraq qeyri-hökumət təşkilatlarının hüquqları pozulmuş şəxsin razılığı ilə Ombudsmana şikayət vermək hüququ izah olunmuşdur. Həmçinin Ombudsman tərəfindən qeyri-hökumət təşkilatlarının hüquqi maarifləndirilməsi istiqamətində mühüm tədbirlər keçirilmiş, o cümlədən keçirilmiş tədbirlərdə onların nümayəndələrinin iştirakı təmin olunmuşdur.

2023-cü ildə Ombudsman aparatında gənclərin hüquqi maarifləndirilməsi, hüquqi düşüncə və hüquq mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi məqsədi ilə muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin könüllü tələbələri ilə Ombudsmanın görüşü keçirilmişdir. Görüşdə insan hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti, insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, muxtar respublikada ona əməl edilməsi, təmini vəziyyətinin öyrənilməsi, habelə çatışmazlıqların və pozuntuların aşkar edilməsi, pozulmuş hüquqların bərpası və pozulmasının qarşısının alınması barədə məlumat verilmişdir.

***Media ilə əməkdaşlıq.*** İnformasiya cəmiyyətində media qurumları ilə əməkdaşlıq daha da genişləndirilməkdədir.

2023-cü ildə Ombudsman tərəfindən informasiya və ictimaiyyətlə əlaqələrin təşkili, mediada insan hüquqlarının təbliği və hüquqi maarifləndirmə ilə bağlı mütəmadi tədbirlər həyata keçirilmişdir.

Ombudsmanın fəaliyyətinə dair məlumatlar yerli və ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmışdır. Bu məlumatların operativ şəkildə ictimaiyyətə çadırılmasını təmin etmək üçün Ombudsmanın rəsmi internet səhifəsindəki və "Facebook" sosial şəbəkə hesabındakı məlumatlar daim yenilənmiş və mətbuata göndərilmiş, televiziya və radio kanallarına müsahibələr verilmişdir.

Ombudsman təsisatının ayrı-ayrı mövzularda təşkil etdiyi tədbirlərdə media nümayəndələrinin iştirakının təmin edilməsi, təsisatla bağlı bu və ya digər məlumatlar, o cümlədən Ombudsman aparatı tərəfindən mütəmadi olaraq təşkil edilən maarifləndirmə tədbirləri, ənənəvi olaraq elan edilən "İnsan hüquqları aylığı" və "Uşaq hüquqları aylığı" çərçivəsində keçirilən tədbirlər mətbuatda işıqlandırılmışdır.

2023-cü il ərzində uşaq hüquqlarının müdafiəsi istiqamətində Ombudsman tərəfindən hüquqi maarifləndirici söhbətlər aparılmış, 1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü və 20 Noyabr Ümumdünya Uşaqlar Günü münasibətilə müxtəlif tədbirlər və interaktiv dərslər keçirilmiş, kütləvi informasiya vasitələrində müxtəlif müsahibələr, hüquqi maarifləndirici yazılar və məqalələr işıqlandırılmışdır.

Həmçinin media subyektləri və informasiya sahibi olan dövlət orqanlarının mətbuat xidməti əməkdaşlarının iştirakı ilə "Ümummilli Lider Heydər Əliyevin söz azadlığı modeli" mövzusunda tədbir keçirilmiş, tədbirdə söz, mətbuat və fikir azadlıqlarının təmini istiqamətində ölkəmizdə həyata keçirilmiş mütərəqqi islahatlar barədə məlumat verilmişdir.

Hesabat dövründə Ombudsman və muxtar respublikanın media nümayəndələri arasında görüş keçirilmiş, media subyektləri və jurnalistlərin informasiya almaq hüququnu məhdudlaşdıran və ya onlara informasiya verilməsindən əsassız imtina edən, qanunla müəyyən edilmiş müddətdə onların sorğusuna cavab verməyən informasiya sahiblərinin qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıdığı bildirilmişdir.

# TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ombudsman insan hüquq və azadlıqlarının səmərəli təmin olunması və etibarlı müdafiəsi məqsədilə aşağıdakıları *təklif edir:*

-Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlama şəraitinin yaxşılaşdırılmasını, təmir-bərpa istiqamətində işlərin davam etdirilməsini, müvafiq müəssisələrdə görüş otaqlarının yaradılmasını;

-Polis tərəfindən tutulmuş şəxslərlə bağlı qanunvericiliyin tələblərinə uyğun saxlama müddətlərinə riayət edilməsinə nəzarətin gücləndirilməsini, qeydiyyat kitablarının tərtibi sahəsində nöqsanların aradan qaldırılmasını, hər bir tutulmuş şəxsin qeydə alınması zamanı həbsdə saxlamanın bütün aspektlərini və görülən bütün tədbirləri əks etdirən əhatəli qeydiyyatın aparılmasını;

-Cəzaçəkmə müəssisələrində cəzanın insan ləyaqətinə hörmət edən şəraitdə çəkilməsi üçün saxlama şəraitinin, sanitariya-gigiyena şəraitinin yaxşılaşdırılmasını;

-Məhkumların istənilən vaxt həkimə müraciət etmək imkanının təmin edilməsi, o cümlədən keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin edilməsi üçün cəzaçəkmə müəssisələrində həkim saylarının artırılmasını;

-Məhkumların əməyə cəlb olunması və məşğulluğunun artırılmasını, onların islahı prosesinə diqqətin artırılmasını;

-Dövlət müəssisələrində yaşayan uşaqların zəruri vasitələrlə təmin edilməsini, uşaqların və ahılların asudə vaxtlarının səmərəli təşkili istiqamətində tədbirlərin genişləndirilməsini;

- Məişət zorakılığından zərər çəkmiş şəxslərə mühafizə orderinin verilməsinin təmin olunmasını;

- Çətin həyat şəraitində olan, o cümlədən məişət zorakılığından zərərçəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin xüsusi təlim keçmiş mütəxəssislərin köməyi ilə təmin edilməsi məqsədilə yardım mərkəzlərinin, sığınacaq evlərinin, psixoloji dəstək mərkəzlərinin yaradılmasını;

- Ahıl şəxslərin sosial-hüquqi müdafiəsinin daha da gücləndirilməsi istiqamətində ardıcıl və davamlı tədbirlərin görülməsini;

- Əlillik vəziyyətinin qiymətləndirilməsi ilə bağlı rəsmiləşdirilmiş göndərişlərə dair qərarların qəbul edilməsi zamanı süründürməçiliyin qarşısının alınması və obyektivliyin təmin edilməsi məqsədilə tibbi-sosial ekspert komissiyaları ilə həkim məsləhət komissiyaları arasında funksional əlaqələndirmənin təmin edilməsini;

- İmtiyazlı qruplardan olan və dövlət hesabına dərman preparatları ilə təmin edilən şəxslərin sağlamlığının qorunması hüququnun daha səmərəli təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini;

- İnformasiya sahibi olan dövlət orqanları və bələdiyyələrdə informasiya məsələləri üzrə xidmətlərin göstərilməsi məqsədilə vəzifəli şəxslərin müəyyən edilməsini, o cümlədən rəsmi internet səhifələrində "informasiya sorğusu" bölməsinin yaradılmasını;

- İnsan hüquqlarının müdafiəsinin daha səmərəli və operativ təmin edilməsi məqsədilə Ombudsman təsisatında "Çağrı mərkəzi" xidmətinin təşkil edilməsini.

## Mündəricat

**GİRİŞ SÖZÜ** 3

**I FƏSİL. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ**

**1.1. Mülki və siyasi hüquqların müdafiəsi** 8
• Azadlıq hüququ 8
• "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əleyhinə" Konvensiyanın Fakültativ Protokolunda nəzərdə tutulmuş preventiv mexanizm funksiyalarının həyata keçirilməsi. 9
• İnformasiya əldə etmək hüququ 12
• Müraciət etmək hüququ 14
• Hüquq və azadlıqların məhkəmə təminatı 14

**1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** 16
• Əmək hüququ 16
• Sosial təminat hüququ 18
• Sağlamlığın qorunması hüququ 19
• Təhsil hüququ 20
• Mənzil və mülkiyyət hüququ 21

**1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** 22
• Şəhid ailələrinin və müharibə veteranlarının hüquqlarının müdafiəsi 22
• Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi 23
• Hərbi qulluqçuların hüquqlarının müdafiəsi 24
• Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi 25
• Uşaq hüquqlarının müdafiəsi 26
• Ahılların hüquqlarının müdafiəsi 27
• Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi 27
• Miqrantların hüquqlarının müdafiəsi 28

**II FƏSİL. BEYNƏLXALQ TƏCRÜBƏ MÜBADİLƏSİ VƏ ƏMƏKDAŞLIQ** 29

**III FƏSİL. HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ**

• İnsan hüquqları sahəsində maarifləndirmə 30
• İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyətləri ilə əməkdaşlıq 31
• Media ilə əməkdaşlıq 31

**TƏKLİF və TÖVSİYƏLƏR** 33

**Mündəricat** 35

**Diaqramlar** 36

## DİAQRAMLAR

### 1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə 2023-cü ildə ünvanlanan müraciətlərin daxilolma forması




### 2. Müraciətlərin növü




### 3. Müraciətlərin aylar üzrə bölgüsü



**4. 2023-cü il ərzində Ombudsman və onun Preventiv qrupu tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilmiş başçəkmələr**







